**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

***Əlyazması hüququnda***

**SEVDA MƏHƏRRƏM qızı MƏMMƏDLİ**

# AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIĞINDA XALQ MAHNILARINDAN İSTİFADƏ MƏSƏLƏLƏRİ (XX əsrin I yarısı)

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

*Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.*

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Gülnaz Abutalıb qızı Abdullazadə**<br>Azərbaycan Respublikasının<br>əməkdar incəsənət xadimi,<br>fəlsəfə elmləri doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Nailə Rasim qızı Rəhimbəyli**<br>sənətşünaslıq üzrə elmlər doktoru, professor<br><br>**Leyla Ramiz qızı Zöhrabova**<br>sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi tarixi və nəzəriyyəsi" kafedrası** |

Müdafiə «___» may 2018-ci ildə saat 14:00-da Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» aprel 2018-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.MƏMMƏDOVA**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Xalq mahnısı və bəstəkar yaradıcılığının qarşılıqlı əlaqələrinin tədqiqi musiqişünaslığın diqqətini cəlb edən mövzulardandır. Müasir dövrdə bu məsələ xüsusi aktuallıq kəsb etmişdir və bizim də bu mövzuya müraciətimiz təsadüfi olmamışdır. Əlbəttə ki, bütün bəstəkarların yaradıcılığında özünü göstərən bu məsələni bir tədqiqat çərçivəsində nəzərdən keçirmək qeyri-mümkündür. Buna görə də biz tədqiqatımızı XX əsrin I yarısına aid bəstəkarların yaradıcılığı ilə məhdudlaşdırmışıq. Bu da müəyyən səbəblərlə bağlıdır.

Birincisi, Azərbaycan bəstəkarlıq məktəbi XX əsrin I yarısında formalaşmışdır və həmin dövrdə yaşayıb-yaratmış bəstəkarların yaradıcılığında bütün musiqi janrları inkişaf etməyə başlamışdır. İkincisi, Azərbaycan bəstəkarlarının yaradıcılığı məhz xalq yaradıcılığı, bilavasitə xalq mahnıları üzərində yetişmiş, Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin və daha sonrakı bəstəkar nəslinin nümayəndələrinin yaradıcılığında xalq musiqisindən müxtəlif janrlarda və müxtəlif üsullarla istifadənin əsası qoyulmuşdur. Bütün bunların əsasında isə XX əsrin II yarısında bəstəkar yaradıcılığında xalq musiqisinə müraciətin yeni yolları formalaşmışdır.

Demək olar ki, bütün Azərbaycan bəstəkarları öz yaradıcılığında xalq mahnı və rəqslərini, aşıq havalarını, muğamları öz bəstəkarlıq təfəkkürü süzgəcindən keçirərək, orijinal dəst-xəttini yaratmışlar. Hər bir bəstəkarın yaradıcılığı kontekstində bu cəhət müxtəlif şəkildə özünü göstərir. Bununla belə, janrından və həcmindən asılı olmayaraq, demək olar ki, bütün əsərlərdə xalq mahnısından istifadə üsulları çoxcəhətli surətdə özünü büruzə verir.

Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq mahnısından istifadə məsələlərinin araşdırılması mühüm əhəmiyyətə malik olub, xalq musiqisi ilə əlaqələrin və milli üslubun təşəkkülü yollarının araşdırılmasına yol açır. Bu da müasir dövrdə aktual məsələlərdən hesab olunur.

**Mövzunun işlənmə dərəcəsi**. Müraciət etdiyimiz mövzu müxtəlif aspektlərdən bir sıra musiqişünaslar tərəfindən tədqiq olunmuş, bir sıra monoqrafiyalarda, məqalələrdə, metodik vəsaitlərdə və dissertasiya işlərində işıqlandırılmış və müəyyən cəhətlərdən tədqiqat obyektinə çevrilmişdir.

Müraciət etdiyimiz mövzu ilə əlaqədar ilk növbədə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin yaradıcılığı ilə bağlı musiqişünaslıq tədqiqatları qeyd olunmalıdır. Ü.Hacıbəylinin yaradıcılığı Azərbaycan musiqi tarixinin mühüm mərhələsini təşkil etdiyinə görə bir sıra tədqiqat əsərlərin-

də, dərslik, dərs vəsaitlərində və məqalələrdə Üzeyir Hacıbəylinin yaradıcılıq yolu işıqlandırılmış, onun tarixi əhəmiyyəti dəyərləndirilmişdir. Onlardan Xurşid Ağayevanın[1], Elmira Abasovanın[2], Əşrəf Abbasovun[3], İzabella Abezqauzun[4], Gülnaz Abdullazadənin[5], Həsən Adıgözəlzadənin[6], Viktor Belyayevin[7], Viktor Vinoqradovun[8], Kamilə Dadaşzadənin[9], Məmmədsaleh İsmayılovun[10], Əhməd İsazadənin[11], İmruz Əfəndiyevanın[12], Fərəh Əliyevanın[13], Cəmilə Həsənovanın[14], Şəhla Həsənovanın[15], Zemfira Qafarovanın[16], Gülzar Mahmudovanın[17], Leyla Məmmədovanın[18], Xanlar

---

[1] Агаева Х.Г. Узеир Гаджибеков. Б.: АзГИЗ, 1955.

[2] Абасова Э.А. Узеир Гаджибеков. Путь жизни и творчества. Б.: Элм, 1985,; Абасова Э.А. Оперы и музыкальные комедии Узеира Гаджибекова. Б.: 1961.

[3] Аббасов А. Узеир Гаджибеков и его опера «Кероглы». Б.: АзМузИзд., 1956.

[4] Абезгауз И.В. Опера «Кероглы» Узеира Гаджибекова. О художественных открытиях композитора. М.: Советский композитор., 1987.

[5] Abdullazadə G.A. Üzeyir Hacıbəyov: Şərq-Qərb dialoqu. // Azərbaycan milli musiqisinin tədqiqi problemləri. Məqalələr toplusu, III buraxılış (tərtibçi və məsul redaktor A.Abdüləliyev). B.: Elm, 1999. s. 3-9.

[6] Adıgözəlzadə H.Ə. Üzeyir Hacıbəyov və onun müasirlərinin fəaliyyətinin etnomusiqişünaslıq aspekti. //«Musiqi dünyası» jurnalı, № 1-2, 2004, s.113-119.

[7] Беляев В.М. Музыкальная культура Азербайджана. / Очерки по истории музыки народов СССР. Вып. 2. М.: Музгиз, 1963, с.5-81.

[8] Виноградов В.С. Узеир Гаджибеков и азербайджанская музыка. М.: Музгиз, 1938.

[9] Дадаш-заде К. Восхождение (Узеир Гаджибейли и ашыгское искусство: интертекстуальный диалог). Б.: «Şərq-Qərb», 2014.

[10] İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. B.: 1960. Yenidən işlənmiş və tamamlanmış nəşri. B.: İşıq, 1984.

[11] İsazadə Ə.İ. Azərbaycan musiqi folklorunun öyrənilməsi tarixindən. // Azərbaycan xalq musiqisi (oçerklər). B.: Elm, 1981. s.5-19.

[12] Эфендиева И.М. Национальные черты песенного творчества Узеира Гаджибекова. // Узеир Гаджибеков и народная музыка. Б.: 1991. с. 95-101.

[13] Əliyeva F.Ş. XX əsr Azərbaycan musiqisi: tarix və zamanla üz-üzə. B.: Elm, 2007.

[14] Həsənova C.İ. Üzeyir Hacıbəylinin yaradıcılığında milli musiqinin nəzəri əsasları. B.: Mars-print, 2009.

[15] Həsənova Ş.H. XX əsr Azərbaycan musiqisi: ənənə və müasirlik. B.: 2011.

[16] КафароваЗ.Г.«Кероглу» Узеира Гаджибекова. Б.: Язычы, 1981.

[17] Махмудова Г.Р. Генезис и эволюция остинатности в азербайджанской музыке. Б.: Нурлан, 2006.

[18] Məmmədova L.M. Üzeyir Hacıbəyov və Azərbaycanda xor ifaçılığı sənəti (bəzi sənədlərin izi ilə). // «Musiqi dünyası» jurnalı, № 3-4 (25), 2005. s. 98-103.

Məlikovun[19], Tərlan Seyidovun[20], Zemfira Səfərovanın[21], Validə Şərifova-Əlixanovanın[22], Ramiz Zöhrabovun[23] və başqalarının elmi əsərlərini göstərmək olar.

Tədqiqatda müraciət etdiyimiz digər bəstəkarlardan Müslüm Maqomayevin, Zülfüqar Hacıbəyovun, Asəf Zeynallının, Səid Rüstəmovun, Əfrasiyab Bədəlbəylinin və digər bəstəkarların yaradıcılığı da müxtəlif səpkili elmi əsərlərdə araşdırılmışdır. Bütün bu elmi əsərlər bizim tədqiqatımız üçün dəyərli mənbə olmuşdur.

**Dissertasiyanın məqsədi** Azərbaycan xalq mahnılarının və bəstəkar yaradıcılığının təhlilindən və bəstəkar yaradıcılığında xalq mahnısından istifadə məsələlərinə diqqət yetirilməsindən ibarətdir. Bu məqsəddən irəli gələrək, dissertasiya işində aşağıdakı **vəzifələrin** həlli qarşıya qoyulur:

- musiqi mədəniyyətinin inkişafı prosesində xalq mahnılarının toplanması və notlaşdırılmasının əhəmiyyətli rolunun öyrənilməsi;
- musiqişünaslıqda xalq mahnılarının janr xüsusiyyətlərinin tədqiqi;
- xalq mahnılarının bəstəkar yaradıcılığı üçün əhəmiyyətinin araşdırılması;
- bəstəkar yaradıcılığının bütün sahələrində xalq mahnılarından istifadə yollarının araşdırılması və müxtəlif janrlara aid bəstəkar əsərlərinin təhlili.

**Dissertasiyanın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq mahnısından istifadə məsələləri tədqiq edilmiş, xalq mahnı irsinin bəstəkar yaradıcılığının əsas qaynağı olması və üslub xüsusiyyətlərinin formalaşmasında rolu müəyyənləşdirilmişdir.

Azərbaycan xalq mahnılarının bəstəkarlar tərəfindən işləmələri, müxtəlif janrlı bəstəkar əsərlərində xalq mahnılarından istifadə nümunələri araşdırılmış; XX əsrin I yarısında yaşayıb-yaratmış bəstəkarların müxtəlif janrlı musiqili-səhnə (opera, musiqili komediya, balet) əsərlərində, vokal əsərlərində – mahnı və romanslarda, instrumental musiqidə xalq mahnıla-

---

[19] Меликов Х.Г. «Аршин мал алан» Узеира Гаджибекова. Б.: 1955.

[20] Сеидов Т.А. Азербайджанская фортепианная культура XX века: педагогика, исполнительство и композиторское творчество. Б.: Азернешр, 2006.

[21] Səfərova Z.Y. Üzeyir Hacıbəyovun yaradıclığında nəzəri və estetik problemlər. B.: Elm, 1985.

[22] Шарифова-Алиханова В.Ш. Основные этапы национального стиля азербайджанской музыки. Б.: 2009.

[23] Zöhrabov R.F. Üzeyir Hacıbəyov və Azərbaycan xalq musiqisi. /«Bəstəkarlarımız haqqında söz». B.: «Şur», 1995, s.4-10; Muğam. B.: 1991.

rından istifadə məsələləri öyrənilmiş; bəstəkarların ayrı-ayrı əsərlərinin janr xüsusiyyətləri, musiqi üslubu, xalq mahnısına yaradıcı münasibətindən irəli gələn cəhətlər üzə çıxarılmışdır.

**Dissertasiyanın metodu və metodoloji əsası.** Tədqiqat prosesində nəzəri musiqişünaslıqda qəbul olunmuş təhlil metodlarından, o cümlədən, tarixi-nəzəri və müqayisəli təhlil metodundan istifadə edilmişdir. Bu məqsədlə Azərbaycan musiqişünaslarının elmi yaradıcılığına müraciət edilmiş, musiqi mədəniyyətinin, bəstəkarlıq sənətinin, musiqi təhsili və pedaqogikasının formalaşması yolları nəzərdən keçirilmişdir.

Azərbaycan musiqişünaslarının – Ü.Hacıbəylinin, M.İsmayılovun, E.Abasovanın, G.Abdullazadənin, S.Qasımovanın, R.Məmmədovanın, T.Seyidovun, R.Zöhrabovun Z.Qafarovanın, İ.Əfəndiyevanın, F.Əliyevanın, C.Həsənovanın, Ş.Həsənovanın, A.Hüseynovanın, G.Mahmudovanın, C.Mahmudovanın və başqalarının Azərbaycan xalq musiqisinə və bəstəkar yaradıcılığına həsr olunmuş tədqiqatları dissertasiyanın əsas metodoloji bazası kimi qeyd olunmalıdır. Eyni zamanda, rus və xarici musiqişünas alimlərin – B.Asafyevin, V.Belyayevin, B.Bartokun, V.Vinoqradovun, İ.Zemtsovskinin, Q.Qolovinskinin və başqalarının bəstəkar yaradıcılığı və xalq musiqi əlaqələrinin araşdırılması ilə bağlı elmi tədqiqatları dəyərli mənbədir.

**Tədqiqatın obyektini** Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq mahnılarından istifadə yollarının öyrənilməsi, bəstəkarların və musiqişünasların xalq mənbələrinə münasibətinin üzə çıxarılması təşkil edir.

**Tədqiqatın predmetini** Azərbaycan bəstəkarlarının XX əsrin I yarısında yaranmış əsərləri timsalında xalq mahnısından istifadə yollarının öyrənilməsi, xalq mahnısının əsas xüsusiyyətlərinin bəstəkarların yaradıcılıq üslubuna təsiri məsələlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın materialını** Azərbaycan bəstəkarlarının XX əsrin I yarısına aid əsərləri, xalq mahnılarının not yazıları və işləmələri təşkil edir. Tədqiqatda Ü.Hacıbəylinin, M.Maqomayevin və başqa bəstəkarların əsərlərinin təhlili əsas yer tutur.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti**. Tədqiqatın materiallarından, əldə edilmiş elmi müddəalardan elmi tədqiqatlarda, eləcə də ali musiqi məktəblərinin nəzəri və praktiki kurslarında – "Azərbaycan musiqi tarixi", "Azərbaycan xalq musiqi yaradıcılığı", "Azərbaycan xalq musiqisinin əsasları", "Musiqi əsərlərinin təhlili" və s. musiqi tarixi və nəzəriyyəsi ilə bağlı fənlərin tədrisində istifadə edilə bilər.

**Dissertasiyanın aprobasiyası**. Dissertasiya Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmiş

və müzakirə olunmuşdur. Tədqiqatın əsas müddəaları müəllifin elmi konfranslardakı məruzələrində, yerli və xarici elmi məcmuələrdə çap olunmuş bir sıra məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, iki yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və saytoqrafiyadan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I fəsli "Musiqişünaslıqda Azərbaycan xalq mahnılarının nota salınması və tədqiqi məsələləri" adlanır.**

Xalq musiqi xəzinəsinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi bütün musiqiçilərin, xüsusilə də bəstəkar və musiqişünasların diqqət mərkəzində duran ən məsuliyyətli məsələlərdəndir. Xalq musiqisi incilərinin texniki vasitələrlə lentə yazılması, nota salınıb mühafizə olunması, toplu və məcmuələr şəklində çap edilib mədəniyyət abidəsi kimi qorunması və elmi surətdə öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Bütün bu məsələlərin həlli yolunda atılan hər bir addım Azərbaycan xalqının musiqi mədəniyyətinin yüksəlməsinə və inkişafına xidmət edir.

Müasir dövrdə Azərbaycan xalq mahnı və rəqslərinin, hətta muğam sənətinin ermənilər tərəfindən mənimsənilməsi və erməni musiqisi adı ilə dünya arenasında təqdim olunması göstərir ki, biz sahibi olduğumuz milli musiqi sərvətlərini qorumağı bacarmalıyıq və məhz Azərbaycanın milli-mədəni sərvətləri kimi dünyaya çatdırmalıyıq. Bu da müasir texniki səs-yazma və notlaşdırma vasitələrinin köməyi ilə sistemli şəkildə aparıldığı təqdirdə mümkündür.

Bu istiqamətdə görülən işlərdə belə bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, xalq mahnıları, eləcə də şifahi şəkildə nəsildən-nəslə ötürülən qeyri-maddi mədəniyyət nümunələri bu gün əsasən yaşlı nəslin nümayəndələrinin yaddaşlarında yaşayır. Etiraf etmək lazımdır ki, gənc nəslin təlim-tərbiyəsində müasir radio, televiziya və xüsusilə də internet kimi kütləvi informasiya vasitələrinin çox böyük rolu vardır və onlar dünya informasiya axınında formalaşır. Bu prosesdə çox zaman milli mədəniyyətin dərin qatlarında yerləşən mədəni irsə müraciət, onların toplanması, müxtəlif texniki vasitələrlə qorunub saxlanması diqqətdən kənarda qalır. İllər keçdikcə, yaşlı insanların həyatdan köçməsi ilə onların yaddaşındakı

nümunələri itiririk. Bu da bizim mədəniyyətimizə ziyan vurur. Bu baxımdan, əlbəttə ki, şifahi ənənəli musiqi nümunələrinin toplanması işinin geniş miqyaslı təşkili onların qorunmasının ilkin və vacib mərhələsi kimi qeyd olunmalıdır. XX əsr ərzində bu cür toplama işinin bünövrəsi qoyulsa da və bu sahədə müəyyən işlər görülsə də, hal-hazırda bu məsələ öz aktuallığını saxlayır.

Xalq musiqi yaradıcılığının öyrənilməsinin başlanğıc və ən vacib mərhələsi xalqın yaddaşında yaşayan musiqi nümunələrinin toplanıb nota köçürülməsindən ibarətdir. Qədim köklərə malik Azərbaycan xalq musiqisi əsrlər boyu şifahi şəkildə nəsildən-nəslə keçmişdir və xalq musiqisi nümunələrinin yazıya alınması yalnız XIX əsrdə rus etnoqrafları tərəfindən başlanmışdır.

Azərbaycanda xalq musiqisinin toplanması və öyrənilməsi üzrə müntəzəm iş 1920-ci illərdən aparılmışdır. 1927-ci ildə ilk dəfə olaraq, Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin nota yazdıqları və işlədikləri nümunələr "Azərbaycan türk el nəğmələri" məcmuəsində işıq üzü gördü. Bu, Azərbaycan xalq mahnılarının məcmuə şəklində çap olunmuş ilk nümunəsi kimi musiqi tariximizə daxil olmuşdur.

Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin "Azərbaycan türk el nəğmələri" məcmuəsindəki mahnıların əksəriyyəti xanəndə Cabbar Qaryağdıoğlunun ifasından nota yazılmış, bəziləri isə Zülfüqar Hacıbəyov tərəfindən toplanmış və Ü.Hacıbəyliyə təqdim olunmuşdur. Həmin məcmuənin 1985-ci ildə çıxmış yeni nəşrinin redaktoru professor Bayram Hüseynli tərəfindən bu haqda şərhlər verilmişdir.

"Azərbaycan türk el nəğmələri" məcmuəsində 33 rəngarəng xarakterli xalq mahnısı toplanmışdır. Həmin mahnı nümunələrinin bir hissəsi səs (və ya xor) və fortepiano üçün işlənilmiş, digər hissəsi isə birsəsli şəkildə verilmişdir. Xalq yaradıcılığını öyrənmək üçün zəngin material verən bu məcmuə böyük səylə tərtib olunmuş və qeydlərdə bu və ya digər yazının harada, nə vaxt və kim tərəfindən aparıldığı haqqında maraqlı faktik məlumat toplanmışdır.

1932-1943-cü illər ərzində Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Bülbülün rəhbərlik etdiyi Elmi-Tədqiqat Musiqi Kabinetinin fəaliyyəti diqqətəlayiqdir. Bu kabinetdə milli musiqi sənətimizin incilərinin qorunub saxlanılması sahəsində çox böyük işlər görülmüşdür.

Kabinetdə xanəndələrin, aşıqların, xalq çalğı alətləri ifaçılarının repertuarından çox sayda nümunələr fonoqraf vasitəsilə fonovaliklərə yazılmışdır. Həmin səs yazıları kabinetin əməkdaşları olan bəstəkarlar – Səid Rüstəmov, Tofiq Quliyev, Qara Qarayev, Fikrət Əmirov, Zakir Bağırov və başqaları tərəfindən notlaşdırılmışdır. Bir çox Azərbaycan bəstəkarlarının

yaradıcılıq yolunun başlanğıcı Elmi-Tədqiqat Musiqi Kabineti ilə bağlı olmuşdur. Kabinetdəki məhsuldar fəaliyyətləri Azərbaycan musiqi irsini, xalq yaradıcılığını dərindən öyrənən və öz yaradıcılığında tətbiq edən bəstəkar və musiqişünasların yetişməsində böyük rol oynamışdır.

Elmi Tədqiqat Musiqi Kabinetinin topladığı materiallar həm ayrıca məcmuə şəklində, həm də müxtəlif nəşrlərdə nümunə kimi çap olunmuşdur. Bunlardan S.Rüstəmovun "50 Azərbaycan xalq mahnısı" (B., 1938), "Azərbaycan rəqs havaları" (B., 1937), "Azərbaycan aşıq mahnıları" (B., 1938) məcmuələrini, Q.Qarayev tərəfindən Qurban Primovun ifasından nota yazılmış "Şur" muğamının bir hissəsinin, bir sıra instrumental musiqi parçalarının V.Belyayevin "Oçerki istorii muzıki narodov SSSR" ("SSRİ xalqlarının musiqi tarixinə dair oçerklər", M., 1963) kitabında nümunə kimi təqdim edilməsini göstərə bilərik. Bu da həmin not yazılarının elmi-metodik dəyərini bir daha sübut edən amildir.

Sonrakı illərdə də bəstəkarlar bu işi davam etdirmişlər. Bülbülün redaktəsi ilə çap olunmuş 2 cilddən ibarət "Azərbaycan xalq mahnıları" məcmuəsi (1956-1958; təkrar nəşr 1981) S.Rüstəmovun, F.Əmirovun və T.Quliyevin not yazılarını əhatə edir. Mahnılar məşhur xanəndə Cabbar Qaryağdıoğlunun, musiqi həvəskarı və xalq mahnı toplayıcısı Ağalar Əliverdibəyovun oxumasından istifadə edilərək nota salınmışdır.

Xalq mahnı və təsniflərinin nota salınması, işlənilməsi və məcmuə şəklində nəşri 1960-cı illərdə də davam etdirilmişdir: Səid Rüstəmovun "Azərbaycan xalq mahnıları" məcmuəsində (B., 1967) təqdim edilmiş lirik mahnı janrına aid nümunələr əsasən müasir ifaçılıq təcrübəsində xanəndələrin repertuarında geniş yayılmış mahnılardan ibarətdir. S.Rüstəmov "Azərbaycan xalq mahnıları" məcmuəsindəki bir sıra mahnıları Zülfi Adıgözəlovun və Xan Şuşinskinin ifasından nota yazmışdır.

Davud Məmmədbəyovun tərtib etdiyi "Azərbaycan lirik xalq mahnıları" məcmuəsində (M., 1965) M.Mirzəyevin, H.Xanməmmədovun, N.Əliverdibəyovun, D.Məmmədbəyovun not yazıları, həmçinin, Ü.Hacıbəylinin, M.Maqomaevin, S.Rüstəmovun və F.Əmirovun əvvəlki məcmuələrdə çap olunmuş bəzi not yazıları öz əksini tapmışdır.

Davud Məmmədbəyovun bir tərtibatçı kimi məcmuədəki şərhləri də diqqətəlayiqdir. O, hər bir nümunənin kim tərəfindən yazıldığını, nə vaxt çap olunduğunu və necə işlənildiyini (səs və fortepiano, xor üçün və ya hansısa əsərin daxilində) göstərmişdir. Bəzi mahnıların Seyid Şuşinski, Əbulfət Əliyev, Sara Qədimova, Əlibaba Məmmədov, İslam Rzayev kimi xanəndələrin repertuarından alındığı qeyd olunmuşdur ki, bu da böyük əhəmiyyətə malikdir.

Qeyd etmək lazımdır ki, bütün bu adı çəkilən məcmuələrdə xalq mahnıları ilə yanaşı təsnif nümunələri də öz əksini tapmışdır, lakin onlar dəqiqləşdirilməyərək, lirik xalq mahnıları sırasında verilir. Yalnız musiqişünas-alim Ramiz Zöhrabovun "Azərbaycan təsnifləri" (M, 1983) məcmuəsində bir sıra lirik mahnıların təsnif kimi not yazısına rast gəlirik. Burada 100 təsnifin not yazısı toplanmışdır. Ən əhəmiyyətli cəhətlərdən biri odur ki, R.Zöhrabov tərəfindən təsniflərin hansı xanəndənin ifasından nota salınması dəqiq göstərilmişdir.

Xalq mahnı və təsniflərinin not yazıları son dövrlərdə Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşları tərəfindən hazırlanmış və çap olunmuş "Azərbaycan xalq musiqisinin Antologiyası"nda da yer almışdır. Antologiyanın I cildində (B., 2003) əvvəlki illərdə nəşr olunmuş məcmuələrdən seçilmiş nümunələr və bir sıra yeni not yazıları (A.Abduləliyevin not yazıları) öz əksini tapmışdır.

"Azərbaycan xalq mahnıları"ndan ibarət daha bir məcmuə 2006-cı ildə Səyavuş Kəriminin tərtibatında 2 cilddə çap olunmuşdur. Bu məcmuədə də həm əvvəlki məcmuələrdə rast gəldiyimiz not yazılarının variantlarına, həm də xalq mahnılarının yeni not yazılarına rast gəlirik.

Bütün bu not yazılarının tarixi dəyəri xalq musiqisinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyətlidir. XX əsrin I yarısında fəaliyyət göstərən bir çox bəstəkarların yaradıcılıq fəaliyyətinin bir istiqaməti də folklorşünaslıq sahəsi ilə bağlı olub, xalq mahnılarının nota yazılması təcrübəsini üzə çıxarır. Xalq mahnı məcmuələrinin tədris prosesində və musiqişünaslıq tədqiqatlarında geniş istifadə olunması bu not yazılarının elmi-metodik dəyərini üzə çıxarır, eyni zamanda, bəstəkarların folklorşünaslıq sahəsindəki fəaliyyətinin əhəmiyyətini təsdiq edir.

Musiqişünas-alim Məmmədsaleh İsmayılov "Azərbaycan xalq musiqisinin janrları" (B., 1960) kitabında xalq mahnı yaradıcılığının janr təsnifatını vermiş, xalq mahnılarında musiqi dilinin xüsusiyyətlərini xarakterizə etmişdir. M.İsmayılovun L.Karagiçeva ilə birgə "Azərbaycan musiqisi" ("Азербайджанская музыка", M., 1961) adlı məqalələr toplusunda yazdıqları məqalədə də xalq mahnılarının janr və musiqi xüsusiyyətləri xarakterizə olunmuş, onların bəstəkar yaradıcılığında tətbiqi məsələləri öz əksini tapmışdır.

Azərbaycan xalq mahnılarının tədqiqi görkəmli rus musiqişünas-alim Viktor Belyayevin elmi yaradıcılığında da diqqətəlayiq yer tutur. Ümumiyyətlə, onun Azərbaycan xalq musiqisinə, xüsusilə xalq mahnılarına və muğamlara həsr olunmuş elmi əsərləri mühüm əhəmiyyətə malikdir. Bu baxımdan onun "Азербайджанская народная песня" adlı elmi məqaləsi ("O

музыкальном фольклоре и древней письменности”. М., 1971) xüsusi qeyd olunmalıdır.

Xalq mahnılarının janr təsnifatı Rauf İsmayılzadənin “Azərbaycan xalq mahnıları” elmi məqaləsində (“Azərbaycan xalq musiqisi”. Oçerklər. B., 1981, s. 52-85.) öz əksini tapmışdır. R.İsmayılzadə xalq mahnılarını dörd janr qrupuna bölmüşdür: əmək mahnıları, mərasim mahnıları, məişət mahnıları, tarixi mahnılar. R.İsmayılzadının təsnifatında bölgü prinsipi ümumidən xüsusiyə doğru verilir və onların janr xüsusiyyətləri açıqlanır. Bu halda mahnıların məzmunu, xarakteri əsas götürülür.

Sonrakı illərdə xalq mahnı yaradıcılığının inkişaf məsələləri bir neçə tədqiqat əsərində araşdırılmışdır. Bunlardan Ə.Məmmədovanın “Музыкальные миниатюры Азербайджана” (“Azərbaycanın musiqi miniatürləri”, B., 1990), A.Ziyadlının “Азербайджанское народное творчество” (“Azərbaycan xalq yaradıcılığı”, B., 1987) kimi əsərləri qeyd etməliyik.

Beləliklə, xalq mahnıları XX əsrdə bəstəkar və musiqişünasların daim müraciət etdiyi qaynaqlardandır. Belə ki, həm bədii, həm də elmi yaradıcılıq üçün zəngin material olan xalq mahnıları bəstəkar və musiqişünaslar tərəfindən nota salınmış və işlənilmişdir. Bu da bir tərəfdən, Üzeyir Hacıbəylinin sözləri ilə desək, onları unudulmaqdan xilas etmiş, digər tərəfdən də onların tədqiqi üçün yollar açmışdır.

**Dissertasiyanın II fəsli “Ü.Hacıbəylinin və M.Maqomayevin “Azərbaycan türk el nəğmələri” məcmuəsinin folklorşünaslığın və bəstəkar yaradıcılığının inkişafında əhəmiyyəti” adlanır.**

Ü.Hacıbəyli və M.Maqomayevin 1927-ci ildə işıq üzü görmüş “Azərbaycan türk el nəğmələri” məcmuəsi Azərbaycan xalq mahnılarının not yazılarından ibarətdir. Məcmuənin 1985-ci ildə ikinci nəşri “Azərbaycan el nəğmələri” adı ilə çap olunmuşdur.

Biz Ü.Hacıbəyli və M.Maqomayevin “Azərbaycan el nəğmələri” məcmuəsinə müraciət edərək, burada toplanmış mahnıların janr müxtəlifliyini araşdırmağı, onları janrlar üzrə sistemləşdirməyi, eləcə də musiqi dilinin xüsusiyyətlərini, mahnıların səs (xor) və fortepiano üçün işləmələrinin əsas cəhətlərini təhlil etmişik. Bu da musiqi folkşünaslığının inkişafı üçün təkan nöqtəsi olan “Azərbaycan türk el nəğmələri” məcmuəsinin tarixi və elmi əhəmiyyətinin açıqlanmasına, eləcə də xalq mahnısının bəstəkar yaradıcılığında tətbiqi yollarının üzə çıxarılmasına yönəldilmişdir.

“Azərbaycan türk el nəğmələri” məcmuəsindəki mahnıların musiqi dili ilə bağlı xüsusiyyətlərə diqqət yetirməyi məqsədəuyğun sayırıq. Qeyd etdiyimiz kimi, Ü.Hacıbəyli və M.Maqomayev tərəfindən nota salınmış

33 mahnıdan 22-si harmonizə edilmiş, yəni səs (xor) və fortepiano üçün işlənilmiş, qalan hissəsi isə birsəsli verilmişdir.

Birsəsli nümunələr bunlardır: “Qalada yatmış idim”, “Evlərinin dalı qaya”, “Əlində sazın qurbanı”, “Ayın aydınlığı”, “Həştərxana gedən”, “Bağçadan gələn səs”, “Qalalıyam”, “Bağın bağımcan varmı”, “Dağlarda çiçək”, “Saçın ucun hörməzlər”, “Anama deyin”. Bu nümunələr lirik mahnı janrına aiddir.

Səs və fortepiano üçün mahnı işləmələrinin musiqisində janr xüsusiyyətlərindən irəli gələn cəhətlər, bilavasitə musiqi dilinin əsas cəhətləri və onların bəstəkarlıq üslubuna təsiri diqqəti cəlb edir. Buradan da xalq mahnı işləməsində onun məzmununun açılmasına yönəldilmiş cəhətlər xüsusilə müşayiət fakturasında özünü göstərir.

“Çək, şumla yeri”, “Biçinçiyəm”, “Tütü nənəm”, “Zəhmətin işığı”, “Çıxdı günəş”, “Səhər-səhər yaz çağı”, “Şəfəq sökülərkən”, “İş başına” kimi kişi və qadın əməyi ilə əlaqədar əmək mahnıları öz quruluşuna, ifadə vasitələrinə görə çox da mürəkkəb olmayaraq, əmək prosesində eyni cür hərəkətləri əks etdirən dəqiq ritmi ilə seçilir. Ümumilikdə, əmək mahnılarının musiqisi müxtəlif xarakterlidir. Bəzi mahnılar nidalardan, bəziləri qısa ibarə və avazlardan, bəziləri isə geniş səpkili musiqi cümlələrindən ibarət olur.

Məcmuədəki lirik mahnılardan səs və fortepiano üçün işlənilmiş nümunələri nəzərdən keçiririk: “Qara qız”, “Dağıstan dağ yeridir”, “Küçələrə su səpmişəm”, “Gəl-gəl” lirik mahnı işləmələri özünəməxsus cəhətlərə malikdir. Məsələn, “Gəl-gəl” mahnı işləməsinin maraqlı cəhəti onun temp göstəricisi ilə bağlıdır: “Tempo di valsa”. Qeyd etməliyik ki, mahnının müşayiətində - metroritmik quruluşda və fakturada da valsvarilik özünü büruzə verir ki, bu da Azərbaycan xalq mahnı işləməsinin xarakterinə təsir edərək, ona yeni cizgilər aşılayır.

Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin “Azərbaycan el nəğmələri” məcmuəsindəki mahnıların işləmələri diqqətəlayiq xüsusiyyətlərə malikdir. Qeyd etmək lazımdır ki, bu işləmələr sadə və eyni zamanda, dərin məzmunludur. Məcmuədəki xalq mahnı işləmələrində melodiya aparıcı rol oynayır. Müşayiət isə əsasən xalq musiqi dilinin elementləri üzərində qurulur. Bəzi hallarda fortepiano fakturasında mahnının məzmununa uyğun təsviri elementlərdən istifadə olunur. Çox zaman isə müşayiət melodiyanın hər hansı bir motivini və ya ritmik fiqurunu qabarıq əks etdirir.

Səs və fortepiano üçün işləmələrdə xalq mahnılarına yaradıcılıqla yanaşan bəstəkarlar onların janr xüsusiyyətlərini qabarıq göstərməyə çalışmışlar.

Belə ki, mahnıların müşayiəti onların xarakterinin, ruhunun açılmasına yönəldilmişdir. Bu mahnı işləmələrində bəstəkarlar xalq melosunun özünəməxsus üslubunu qoruyaraq, onun klassik sistemlə qovuşma yollarını üzə çıxarmışlar. Bu baxımdan xalq melodikasının bərabər temperasiyalı səs sisteminə malik fortepianonun bədii-ifaçılıq imkanlarına uyğunlaşdırılması mühüm əhəmiyyətə malikdir. Milli məqam sisteminə əsaslanan xalq mahnılarının harmonizasiyası major-minor və milli məqam quruluşu arasında qovuşma nöqtələrini və ümumi cəhətləri aşkarlamışdır.

Ü.Hacıbəyli və M.Maqomayevin "Azərbaycan el nəğmələri" məcmuəsinin tarixi əhəmiyyəti çox böyükdür. Bu məcmuə xalq musiqimizin qədim nümunələrini qoruyub saxlamaqla yanaşı, xalq musiqisinin yaradıcılıqla işlənilməsi üçün yollar açmışdır.

**Dissertasiyanın III fəsli "Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq mahnısından istifadə yolları" adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir. III fəslin birinci yarımfəsli – 3.1. "Opera və musiqili komediyalarda xalq mahnısından istifadə" məsələlərinə həsr olunmuşdur.**

XX əsrin əvvəllərindən başlayaraq, Azərbaycan bəstəkarlarının yaradıcılığında ilk öncə opera və musiqili komediya kimi musiqili-səhnə janrları, daha sonralar kamera-vokal və instrumental janrlar mənimsənildiyinə görə, biz müxtəlif janrlı əsərlərdən nümunələr üzərində xalq mahnısından istifadə yollarını araşdırmışıq.

Xalq musiqisindən, xüsusilə muğamlardan sitat şəklində istifadə prinsipi Ü.Hacıbəylinin yaradıcılığının birinci dövrünə aid operalarında – "Leyli və Məcnun", "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşid Banu", "Harun və Leyla", "Əsli və Kərəm" operalarında özünü göstərir.

Xüsusilə "Leyli və Məcnun" operasında xor və ansambl səhnələrində Ü.Hacıbəyli xalq mahnılarından, təsnif və rəng melodiyalarından istifadə etmiş, onları müxtəlif üsullarla işləmişdir.

Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasında iki xor xalq mahnılarına əsaslanır: I şəkildən məktəbli qızların və oğlanların "Nagah olsa" xorunda "Evləri var xana-xana" xalq mahnısından, IV şəkildən qızların pərdəarxası (xəyal) xorunda – "Bu gələn yara bənzər" xalq mahnısından istifadə olunmuşdur.

Operanın məzmununda xalq mahnılarına əsaslanan xorlar − I pərdədə Leyli və Məcnunun dostlarının xoru ("Evləri var xana-xana") və "Məcnun səhrada" epizodunda səhnə arxasında səslənən qızların "Bu gələn yara bənzər" xoru müxtəlif dramaturji mahiyyət daşıyır. Bu xorlarda xalq mahnısından istifadə yolları da müxtəlifdir.

Həmin xorların əsaslandığı xalq mahnılarının melodiyası olduğu kimi saxlanılır, lakin işləmə üsulları fərqlidir. İlk növbədə, xorun dramaturji mahiyyətinə görə poetik mətnin dəyişdirilməsini qeyd etməliyik. Xor üçün işləmələrdə unison və ikisəslilik, polifonik imitasiya, orkestr müşayiətinin fakturası və s. özünəməxsus xüsusiyyətlərə malikdir.

I pərdədə qızların və oğlanların xoru ikihissəli quruluşdadır: birinci hissədə soprano və tenorlar, ikinci hissədə ancaq tenorlar iştirak edir.Bu cür ikihissəli quruluş səhnədə baş verən hadisələrlə bağlıdır. Xorun hissələri müxtəlif məqamlar − segahdan çahargaha keçid üzərində qurulur, hissələr arasındakı instrumental epizodda hadisələrin gedişatında emosional vəziyyətin dəyişməsi və gərginliyin artması özünü göstərir. Səhnənin məzmunu xorun poetik mətnində təcəssüm olunur. Xorda "Evləri var xana-xana" mahnısının melodiyası saxlanılmaqla, bəstəkar tərəfindən poetik mətni bütövlükdə dəyişdirilmiş və səhnədəki hadisələrə uyğunlaşdırılmışdır: "Nagah olsa, atanız işdən agah", "Neylərsiz əgər, siz əgər, siz əgər, versə cəza"… Xalq mahnısının melodiyasından yeni poetik mətnlə istifadə edilməsi xalq mahnısının bəstəkar əsərlərində işlənilməsinin bir üsulu kimi nəzərdən keçirilə bilər.

"Leyli və Məcnun" operasında "Bu gələn yara bənzər" xoru eyniadlı xalq mahnısına əsaslanır. Bunu da xalq mahnısının xor üçün ilk işləmələrindən biri hesab etmək olar.

"Bu gələn yara bənzər" xalq mahnısının musiqi və poetik məzmunu səhrada dolaşan Məcnunun ruhi vəziyyətini əks etdirmək üçün səhnənin ümumi əhval-ruhiyyəsinə tam uyğun gəlir. Xalq mahnı melodiyasına əsaslanan ikisəsli xorda bəstəkar melodiyanın tersiya-seksta (hərəkət xəttində bəzən kvarta-kvinta) münasibətində ikiləşdirilməsində məqam pillələrinin funksional əlaqələrinə əsaslanaraq, səslərin rəvan və ahəngdar qovuşdurulmasına nail olmuşdur. Həmçinin, məqamın əsas dayaq pillələrinin kadensiyalarda harmonik səs birləşmələri vasitəsilə təsdiqlənməsi mütənasib forma yaradılmasına xidmət edir.

Ü.Hacıbəylinin musiqili komediyalarında da xalq mahnısından yaradıcılıqla istifadə edilmişdir. Musiqili komediyalarda xorlar bir tərəfdən məişət səhnələrinin yaradılmasına, digər tərəfdən kütlənin ümumiləşmiş portretinin və əhval-ruhiyyəsinin təcəssümünə xidmət edir, bəzi hallarda isə müəllif mövqeyinin ifadəçisinə çevrilir. Bu halda xalq mahnısının melodiyasından istifadə olunaraq, onun poetik mətninin dəyişdirilməsi məsələsi ön plana çıxır. Belə nümunələrə solo və ansambl nömrələrində də rast gəlinir. Bir sıra nümunələrdə isə xalq mahnısının melodik quruluş xüsusiyyətlərinə daha sərbəst yanaşma prinsiplərinin şahidi oluruq.

“Ər və arvad” Ü.Hacıbəylinin üç musiqili komediyasından birincisi olmaqla, öz üslubuna görə bu janrda yazılmış digər əsərlərə yol açmışdır. Bu baxımdan əsərin musiqi məzmununda özünü göstərən ifadə vasitələri, inkişaf xüsusiyyətləri, xalq musiqisinə əsaslanma və s. məsələlər diqqətəlayiqdir.

“Ər və arvad” musiqili komediyasında bir sıra nömrələrin musiqi məzmununu xalq mahnı melodiyaları təşkil edir – həm solo, həm ansambl, həm də xor səhnələrində bunu izləyə bilərik.

Əsərin baş qəhrəmanlarından biri olan Mərcan bəyin kupletlərində (I pərdə) “Nəzr eyləmişəm” xalq mahnısından, Mərcan bəylə Kərbəlayi Qubadın duetində (I pərdə) “Qalalıyam” xalq mahnısından, nökər Səfinin mahnısında (II pərdə) “Laçın” xalq mahnısından istifadə olunması maraq doğurur.

“O olmasın, bu olsun” musiqili komediyasında da bəstəkar xalq mahnı melodiyalarından yaradıcılıqla istifadə etmişdir. Dördüncü pərdədə “Gedin, gedin, qazıya deyin” xorunda “Nə baxırsan yanı-yanı” xalq mahnısının melodiyası buna misal ola bilər. Əsərin sonunda iştirakçıların “Gedin, gedin, qazıya deyin, qoy kəbini kəssin” xoru həm hadisələri yekunlaşdıran, həm də əsərin mənəvi-əxlaqi mənasını açıqlayan bir səhnə kimi yadda qalır. Bu xor üçsəsli ifadə tərzindədir, nadir hallarda imitasiyalı, səsaltı polifonik quruluşlu epizodlardan istifadə olunur.

Məşədi İbadın Sənəm və Gülnazla triosunda bəstəkarın xalq mahnısı əsasında maraqlı bir səhnə yaratdığını görürük. Burada “Hüsnü bağında” xalq mahnısının poetik mətninin əvvəldə saxlanıldığını, sonra isə qəhrəmanların dialoqu prosesində onların fikirlərini ifadə edərək dəyişdirildiyini görürük. Trioda xalq mahnısının melodik quruluşu təkrarlansa da, onun işlənilmə tərzi dəyişilir.

“Arşın mal alan” musiqili komediyasında xalq mahnılarından istifadə prinsiplərinin inkişafını qeyd edə bilərik. Burada həm xalq mahnısının melodiyasının olduğu kimi saxlanılaraq, poetik mətninin dəyişdirildiyini görürük, həm xalq mahnı melodiyasının ayrı-ayrı elementlərinin işlənilməsini, həm də mahnı melodiyasının instrumental epizodlarda işlənildiyini müşahidə edirik.

Əsərdə Soltan bəyin kupletləri “Canlar içindəki canım ay” lirik xalq mahnısına əsaslanır. Ü.Hacıbəylinin işləməsində mahnının melodiyası saxlanılmış, sözləri isə yenidən tərtib olunmuşdur: “Bir at aldım hər yana çapdım”.

Soltan bəyin kupletlərinin mətnində və melodik quruluşunda obrazın xarakterinin açılmasına xidmət edən intonasiyalar diqqətəlayiqdir. Nəqəratda Soltan bəyin partiyasına məzəli səslənən – “Aman, aman uy, qaşı kaman uy” – kimi nidaların daxil edilməsi də obraza komiklik aşılayır. Mahnının müşayiəti bu əhval-ruhiyyəni gücləndirir.

“Arşın mal alan” musiqili komediyasından Qızların xorunda (nəqəratda) “Qaladan-qalaya” xalq mahnısının melodiyasından istifadə olunmuşdur. Burada Ü.Hacıbəyli xalq mahnısının sözlərini dəyişməklə onu musiqi məzmununa uyğunlaşdırmışdır ki, bu da müəllifin yaradıcılığı üçün səciyyəvi cəhətdir.

“Arşın mal alan” musiqili komediyasından Uvertüranın əsas mövzusu isə “Boynunda var sarılıq” xalq mahnısının melodiyasına əsaslanır.

Ü.Hacıbəylinin yaradıcılığında xalq musiqisindən istifadə prinsiplərinin daim dəyişdiyini, təkmilləşdiyini görürük. “Leyli və Məcnun” operasında muğamlardan olduğu kimi istifadə edən bəstəkar “Koroğlu” operasında xalq musiqi nümunələrindən istifadə etmədən, mahiyyət etibarilə dərin milli musiqi yaratmışdır. Bununla Ü.Hacıbəyli xalq musiqi dilinin melodik və məqam qanunauyğunluqlarından, məqam sistemindən istifadə edilməsinin əsasını qoymuşdur. Bəstəkar bunu dünya musiqi xəzinəsinə və klassik musiqi təcrübəsinə əsaslanaraq həyata keçirmişdir. Məhz bu yol Azərbaycan bəstəkarlarının özünəməxsus dəst-xəttinin formalaşmasında xüsusi əhəmiyyət kəsb etmişdir.

M.Maqomayevin opera yaradıcılığında da xalq mahnısından istifadə məsələlərini nəzərdən keçirmək maraqlıdır.

Üslubca müxtəlif olan “Şah İsmayıl” və “Nərgiz” operalarında bəstəkar əsasən muğam sənətinə istinad edir. Əgər “Şah İsmayıl”da M.Maqomayev muğam şöbələrindən, rəng və təsniflərdən, zərbi-muğamlardan dolğun surətdə qəhrəmanların fərdi xarakteristikasında, ansambl səhnələrində, xor epizodlarında, reçitativlərdə istifadə etmişdirsə, “Nərgiz” operasında məqamlara əsaslanaraq, muğam intonasiyalarından geniş şəkildə istifadə edərək melodiyalar yaratmışdır.

Bununla belə, hər iki operada xalq mahnısından müxtəlif üsullarla istifadəni müşahidə edirik. Məsələn, “Şah İsmayıl”da – Şah İsmayılın Gülzarla duetində “Gözəllərin gözəlisən” mahnısının melodik quruluşu saxlanılaraq, sözləri dəyişdirilərək istifadə olunub.

“Nərgiz” operasında xalq musiqisi materialının işlənilməsində müxtəlif üsullar özünü göstərir. Bəzən bəstəkar əvvəlcə mahnının (və ya rəqsin) melodiyasını bütövlükdə və sadə tərzdə, məişətdə işlənən ilkin mənbəyə yaxın bir şəkildə səsləndirir, daha sonra onu variantlı təkrarlarla, polifonik üsullarla, harmonik və orkestr boyaları ilə zənginləşdirir. Digər hallarda bəstəkar xalq melodiyasından ayrı-ayrı ibarələri və ya intonasiyaları götürərək, onları məhz obraza və səhnə vəziyyətinə uyğun olaraq işləyir. Bütün hallarda bəstəkar xalq musiqisinin ifadə tərzindən və inkişaf üsullarından bəhrələnir.

XX əsrin birinci yarısında ərsəyə gəlmiş opera əsərlərindən biri də Qara Qarayevin və Cövdət Hacıyevin birlikdə bəstələdikləri "Vətən" operasıdır ki, burada xalq mahnısından birbaşa sitatlar olmasa da, operanın ümumi üslubunda mahnıvarilik təzahür edir. Xüsusilə, operanın qadın qəhrəmanı Dilbərin lirik xarakterli partiyasında mahnıvari üslub özünü bariz şəkildə göstərir.

Beləliklə, XX əsrin I yarısında meydana gəlmiş opera və musiqili komediyalarda xalq mahnısından istifadə üsulları Ü.Hacıbəylinin yaradıcılığında formalaşaraq, digər bəstəkarların əsərlərində də təzahür etmişdir. Bunlardan biri xalq mahnısının melodik quruluşunun saxlanılması ilə əsərin məzmununa uyğun olaraq sözlərinin dəyişdirilməsindən ibarətdir. İkincisi isə xalq mahnılarının məqam-intonasiya və melodik xüsusiyyətlərindən istifadə olunaraq, yeni melodiyaların yaradılması ilə bağlıdır ki, bu da mahnıvari üslubun formalaşmasında mühüm rol oynamışdır.

**III fəslin ikinci yarımfəsli– 3.2. "Vokal və instrumental əsərlərdə xalq mahnısından istifadə"** məsələlərinə həsr olunmuşdur. Biz 1920-30-cu illər və daha sonra 1940-50-ci illərdə bəstəkarların mahnı yaradıcılığına nəzər salaraq, bu janr nümunələrində xalq mahnısından istifadə məsələlərini araşdırmağa çalışmışıq.

Bu baxımdan həmin dövrün mahnı yaradıcılığında xalq mahnılarından istifadə ilə bağlı bir sıra cəhətlər üzə çıxır:

1) Xalqın həyat şəraitindən, cəmiyyətdə baş verən hadisələrdən irəli gələrək, xalq mahnılarının musiqisinin yeni mətnlərlə oxunması;

2) Yeni yaranan musiqi kollektivlərinin repertuarı üçün xalq mahnılarının işlənilməsi;

3) Yaranan bəstəkar mahnılarında xalq mahnı melodiyalarının ayrı-ayrı elementlərindən istifadə olunması.

Bütün bunlar Azərbaycan musiqisində mahnı janrı ilə yanaşı digər instrumental və vokal janrların da mənimsənilməsində və inkişafında mühüm rol oynamışdır.

1920-30-cu illərdə xalq mahnılarının yeni mətnlərlə oxunması tendensiyası tarixi şəraitdən, o dövrün tələblərindən irəli gəlirdi və insanların yeni həyat, yeni mədəniyyət quruculuğunda zəruri vasitələrdən biri hesab olunurdu. Eyni zamanda, bu, yeni xalq və bəstəkar mahnılarının yaranmasına da təkan verirdi.

Həmin dövrdə yaranmış bəstəkar mahnılarında xalq mahnısından istifadə üsullarını araşdırarkən burada bir neçə cəhətə diqqət yetirmək vacibdir:

1) Xalq və bəstəkar mahnıları arasındakı janr uyğunluğu (obrazlı məzmun baxımından yaxınlıq və yeni cəhətlərin meydana gəlməsi);

2) Xalq və bəstəkar mahnılarında musiqi iqtibasları – bəstəkarlar tərəfindən xalq mahnılarının ayrı-ayrı melodik elementlərindən istifadə olunması;

3) Xalq mahnıları ruhunda bəstəkar mahnılarının yaradılması;

4) Xalq mahnıları üçün xarakter olan mətnlərdən (bayatı, qoşma kimi xalq şeiri nümunələrindən) bəstəkar mahnılarında istifadə olunması.

Bəstəkar mahnılarında melodiyanın ümumi ruhunun və quruluşunun xalq mahnılarına yaxınlığı özünü büruzə verir. Bir çox bəstəkarların xalq mahnı ruhunda əsərlər yaratmasını qeyd etmək olar. Ən bariz nümunə kimi Ü.Hacıbəylinin "Qaragöz" mahnısını, S.Rüstəmovun, Ə.Abbasovun, C.Cahangirovun, H.Xanməmmədovun və b. bəstəkarların əksər mahnılarını göstərə bilərik.

Bəstəkar mahnılarının səciyyəvi cəhətlərindən biri də xalq mahnıları üçün xarakter olan mətnlərdən - bayatı, qoşma və s. şeir formalarından istifadə olunması ilə bağlıdır. Bu halda mahnının quruluşunda mətnlə musiqinin əlaqəsindən əmələ gələn cəhətlər xalq mahnıları ilə uyğunluq təşkil edir.

Vokal musiqisində bəstəkar mahnıları ilə yanaşı romans janrının və kökləri xalq musiqisi ilə bağlı olan yeni üslub xüsusiyyətlərinin inkişaf etdirilməsi baxımından Asəf Zeynallının yaradıcılığı diqqətəlayiqdir. Azərbaycan musiqi tarixinə kamera-vokal əsərlərin yaradıcısı kimi daxil olmuş A.Zeynallının "Ölkəm", "Sual", "Çadra" və s. romansları özünəməxsus mahnıvari üslubun formalaşmasında mühüm mərhələ kimi dəyərləndirilir.

Xalq mahnısına yaradıcılıqla yanaşan A.Zeynallının əsərlərində melodik iqtibaslar çox az hallarda özünü göstərir. Onun musiqi üslubunda milli musiqi məqamlarından istifadə üsulları əsas cəhətlərdəndir. Onun romansları müxtəlif çalarlı məqam intonasiyaları, rəngarəng məqam modulyasıyaları üzərində qurulmuşdur, bu da bəstəkarın musiqi dilində məqam-intonasiya xüsusiyyətlərinin zənginliyini şərtləndirir. A.Zeynallının məharətlə istifadə etdiyi məqam- intonasiya inkişafı prinsipləri milli musiqi üslubunun formalaşmasına böyük təsir göstərmişdir.

1920-30-cu illərdə eyni xalq mahnılarının müxtəlif ifaçılıq tərkibləri üçün instrumental və vokal-instrumental işləmələri meydana gəlmişdir. Onların müqayisəsi həmin işləmələrin xüsusiyyətlərini üzə çıxarmağa imkan verir. Belə ki, səs (xor) və fortepiano üçün işləmələrdə mahnının vokal melodiyası və poetik mətni olduğu kimi saxlanılır, instrumental müşayiət partiyası isə mahnının melodik xüsusiyyətlərinə - məqam əsası, metro-ritmik və melodik quruluşuna uyğun olaraq yaradılır.

Ü.Hacıbəylinin xalq mahnıları əsasında yazılmış instrumental pyesləri nəzərdən keçirdiyimiz məsələ baxımından maraqlı nümunələrdir. Ü.Hacıbəylinin xatirə ev-muzeyində saxlanılan kvartet üçün pyeslər dörd xalq

mahnısı əsasında bəstələnmişdir: “Dağlarda çiçək”, “Üç telli durna”, “A ləlli”, “Dağıstan dağ yeridir”. Xalq mahnıları əsasında yazılmış bu dörd pyes kamera janrında bəstələnmiş ilk milli əsərlər kimi olduqca qiymətlidir. Kvartet üçün xalq mahnılarının işlənilməsi özünəməxsus keyfiyyətləri ilə diqqəti cəlb edir. Burada mahnı melodiyasının instrumental şəkildə istifadəsi, bütövlükdə və ya onun ayrı-ayrı elementlərinin imitasiyalı şəkildə keçirilməsi özünü göstərir.

Asəf Zeynallının əsərlərində xalq mahnı melodiyalarından istifadə maraqlı bir şəkildə təzahür edir. Məsələn, “Uşaq süitası”nda milli musiqinin məqam-intonasiya əsaslarına istinad olunması ilə yanaşı xalq musiqisi ilə janr əlaqələrinə və melodik iqtibaslara da rast gəlirik. Silsilədən “Uşaq və buz” pyesini bəstəkar ikinci başlıqda “Mahnı” kimi qeyd edərək, bir növ, janr xüsusiyyətlərini önə çəkir. “Qoyunlar” adlı pyesdə isə bəstəkar eyniadlı xalq mahnısının melodiyasından istifadə etmişdir. Bu mahnıdan istifadəni biz bəstəkarın digər əsərlərində də görürük: violonçel duetini, fortepiano üçün fuqanın mövzusunu misal göstərə bilərik.

XX əsrin I yarısında Azərbaycan bəstəkarlarının simfonik əsərlərində xalq musiqisindən istifadə nümunələrinə rast gəlirik.

1920-ci illərin sonu – 1930-cu illərin əvvəllərində inkişaf yoluna qədəm qoymuş simfonik musiqi sahəsində ilk növbədə Asəf Zeynallının və Müslüm Maqomayevin yaratdığı simfonik əsərlər qeyd olunmalıdır. A.Zeynallının “Fraqmentlər” simfonik süitası Azərbaycan musiqi tarixinə ilk simfonik əsər kimi daxil olmuş, bu sahə M.Maqomayevin simfonik əsərlərində – “Azərbaycan çöllərində” rapsodiyası, “Azad Azərbaycan qadını” rəqsi, “Azərbaycan radio marşı”, “Şəlalə” simfonik pyesi, “Ceyranı” rapsodiyası, “Turacı” rəqsi və s. əsərlərində davam etdirilmişdir. Bütün bu nümunələr Azərbaycan bəstəkarlarının yaradıcılığında simfonik üslubun formalaşmasında müəyyən mərhələ olmuşdur.

Simfonik musiqi sahəsində xalq mahnısından istifadə məsələsi ilə bağlı olaraq, simfonik inkişaf prinsiplərinə əsaslanan bir janrda – 1940-cı ildə yaranmış ilk Azərbaycan baleti olan Əfrasiyab Bədəlbəylinin “Qız qalası” baletinin musiqisində bir sıra xalq rəqsləri ilə yanaşı, “Ay bəri bax” xalq mahnısından istifadəni nümunə gətirə bilərik. Burada xalq mahnısının melodiyası əsərin süjet xəttində I pərdədə Gülyanaqla Poladın toyunda gəlinin rəqsində tətbiq edilmişdir. Ə.Bədəlbəyli baletin partiturasına xalq mahnısının melodiyasını daxil etməklə, onu simfonik üsullarla işləmişdir. Belə ki, mahnı melodiyası bütövlüklə səslənməyərək, onun ayrı-ayrı elementləri variasiyalı inkişafa məruz qalır.

Azərbaycan musiqisində 1940-cı illərin sonunda yaranmış yeni bir janrda – simfonik muğamlarda xalq mahnılarından istifadə prinsiplərinə nəzər salmaq məqsədəuyğundur. Belə ki, simfonik muğam janrının yaradıcısı Fikrət Əmirovun "Şur" simfonik muğamında (1948) muğam şöbələri, rəng və təsnif melodiyaları ilə yanaşı, "Evləri var xana-xana", "Ay qadası" xalq mahnılarının melodiyalarından, Niyazinin "Rast" simfonik muğamında (1949) "Əlində sazın qurbanı", Süleyman Ələsgərovun "Bayatı-Şiraz" (1950) simfonik muğamında isə "Aman ovçu" və "Laçın" xalq mahnılarından istifadə olunmuşdur.

Simfonik muğamlarda xalq mahnısından istifadənin əsas xüsusiyyətlərindən biri vokal melodiyanın instrumental şəkildə tətbiqi ilə bağlıdır. Bu halda xalq mahnı melodiyasının olduğu kimi simfonik orkestr alətlərinin ifasında səslənməsi önə çıxır. Digər tərəfdən, mahnı melodiyasının simfonik partituraya daxil edilərək, orkestr yazı üsulları vasitəsilə simfonikləşdirilməsi qeyd olunmalıdır.

F.Əmirovun yaradıcılığında "Evləri var xana-xana" mahnısının melodiyasının həm vokal işləməsini, həm də simfonik əsərin mətninə daxil edilməsini görürük. "Evləri var xana-xana" mahnısının simfonik muğamda istifadəsi zamanı mahnı işləməsindəki instrumental müşayiət fakturasının saxlanıldığını görürük. Belə ki, müşayiətin özünəməxsus metroritmik şəkli simfonik fakturaya da daxil edilir və dolğun orkestrləşdirmə ilə təqdim edilir. Bu halda xalq mahnı işləməsinin simfonikləşdirilməsini qeyd etmək olar ki, bu da bəstəkar yaradıcılığında xalq mahnılarının tətbiqi ilə bağlı maraqlı cəhətlərdən biridir.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur.

Azərbaycan bəstəkarlarının xalq mahnısından istifadə prinsiplərinin formalaşmasında Üzeyir Hacıbəylinin yaradıcı və elmi fəaliyyətinin böyük rolu olmuşdur. Ü.Hacıbəyli öz yaradıcılığında xalq musiqisinin səciyyəvi cəhətlərini, onun məqam-intonasiya əsaslarını, metro-ritmik və kompozisiya quruluş xüsusiyyətlərini əks etdirmişdir.

Xalq mahnılarının bəstəkarlar tərəfindən istifadə olunmasında – əsasən orijinal bəstəkar əsərlərində bir neçə cəhət üzə çıxır.

Bəstəkar yaradıcılığında xalq mahnısından istifadə zamanı onun işlənilməsi həyata keçirilir – xor üçün, səs və müşayiət üçün. Hər bir halda xalq mahnı melodiyası müxtəlif xüsusiyyətlər kəsb edir.

Xalq mahnılarının səs və müşayiət (fortepiano və orkestr) üçün işlənilməsi bəstəkar yaradıcılığında çox rast gəlinir. Həm müstəqil şəkildə, həm də irihəcmli əsərlər daxilində xalq mahnısından istifadə olunması özünə-

məxsus cəhətlərə malikdir. Xalq mahnılarının xor üçün işləmələri ayrılıqda, müstəqil əsər kimi, həm də musiqili-səhnə əsərlərinin daxilində rast gəlinir.

Musiqili-səhnə əsərlərində xalq mahnısının səs və müşayiət üçün işlənilməsindən solo partiyalarda və xor səhnələrində istifadə olunur, bu halda xalq mahnısının mətninin dəyişdirilməsi, əsərin süjet xəttinə uyğun yeni mətnlə təqdim edilməsi müşahidə olunur. Eləcə də xalq mahnısının ənənəvi mətninin saxlanılması halları da özünü göstərir.

Bəstəkar mahnılarında xalq mahnı melodiyalarından istifadə olunması yolları müxtəlif olub, nəzərdən keçirdiyimiz digər janrlar daxilində xalq mahnısından istifadədən fərqlənir. Bütün hallarda xalq mahnı melodiyasına yaradıcı surətdə yanaşaraq, bəstəkar mahnısında ayrı-ayrı melodik ibarələrdən, metro-ritmik xüsusiyyətlərdən, məqam əsasının qanunauyğunluqlarından, mahnının ümumi emosional ruhundan və digər ifadə vasitələrindən istifadə oluna bilər.

Xalq mahnılarının melodik quruluşunda məqam əsası mühüm rol oynayır. Bəstəkarlar xalq mahnılarından istifadə edərkən bu qanunauyğunluqlara əsaslanaraq, melodik və harmonik ahəngdarlığa, eləcə də forma quruluşunun mütənasibliyinə nail olurlar.

Xalq mahnılarından istifadə bəstəkarların yaradıcılıq dəst-xəttində mahnıvari üslubun formalaşmasına təkan vermişdir. Bu da özünü milli musiqiyə xas olan məqam-intonasiya əsaslarında, melodik inkişaf qanunauyğunluqlarında, metro-ritmik və quruluş xüsusiyyətlərində göstərir.

Bəstəkar yaradıcılığında xalq mahnıları böyük əhəmiyyətə malik qaynaqlardandır. Bəstəkarların xalq musiqisinə yaradıcı münasibətini nümayiş etdirən nümunələrdə xalq mahnısının simasının dəyişdirilərək, melodik inkişaf xüsusiyyətlərinin yeni keyfiyyət kəsb etməsini izləyə bilərik. Bütün bunların nəticəsində mahnı melodiyası əhəmiyyətli dərəcədə dəyişib zənginləşmiş olur.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Ü.Hacıbəyov yaradıcılığında xalq mahnılarının rolu. // "Mədəni-Maarif" jurnalı. Bakı-2006, № 12, s. 36-37.

2. Üzeyir Hacıbəyovun yaradıcılığında xalq mahnılarının işlənməsi. // "Aspirantların və gənc tədqiqatçıların XII Respublika elmi konfransının materialları". Bakı-2008, s. 368-369.

3. Xalq mahnılarına dair Üzeyir Hacıbəyovun araşdırmaları. // "Musiqi dünyası" jurnalı. Bakı-2007, № 3-4/ 33. s. 143-145.

4. Üzeyir Hacıbəyli Azərbaycan xalq mahnılarının janr təsnifatı haqqında. // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri". X Respublika elmi praktiki konfransı. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı-2011, s. 43-45.

5. Üzeyir Hacıbəylinin yaradıcılığında xalq musiqisindən istifadə məsələləri. // "Mədəniyyətlərarası dialoqda ənənəvi incəsənətin rolu". ADMİU-nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı-2012, s. 116-118.

6. Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq mahnısından istifadə prinsipləri. // "Mədəniyyət dünyası". XXVI buraxılış. Bakı-2013, s. 169-173.

7. Ü.Hacıbəylinin və M.Maqomayevin "Azərbaycan türk el nəğmələri" məcmuəsinin etnomusiqişünaslığın inkişafında əhəmiyyəti. // "Elmi əsərlər". Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı-2013, №16, s. 135-139.

8. Роль азербайджанских народных песен в композиторском творчестве и в музыкальном образовании. Самара, 2017. http://apm-pearl.com/journal-2017-10-mamedli/

9. Пути использования Азербайджанских народных песен в симфоническом мугаме "Шур" Фикрета Амирова. // "Поиск". Международный научный журнал-приложение республики Казахстан. 2018, №1, s. 61-64.

10. Ü.Hacıbəylinin musiqili komediyalarında xalq mahnısından istifadəyə dair. // www.harmony.musigi-dunya.az., Bakı, 2018

**Севда Магеррам гызы Мамедли**

# «Использование народных песен в творчестве азербайджанских композиторов (I половина XX века)»

## РЕЗЮМЕ

Диссертация посвящена проблеме использования народных песен в композиторском творчестве. Целью диссертации является изучение азербайджанских народных песен и пути их претворения в композиторском творчестве, а также роли народных песен в развитии музыкального искусства. Научная новизна диссертации состоит в том, что в процессе исследования проанализированы и выявлены своеобразные черты обработок народных песен, особенности использования народных песен в разных жанрах музыкального творчества − в музыкально-сценических, вокальных и ниструментальных произведениях, связанные с творчеством композиторов первой половины XX века.

Диссертация состоит из введения, 3-х глав, 2-х разделов, заключения, библиографии и сайтографии.

**I глава** диссертации – **«Нотирование и исследование азербайджанских народных песен в музыковедении».**

**II глава** диссертации – **«Значение сборника У.Гаджибейли и М.Магомаева «Азербайджанские тюркские народные напевы» в развитии фольклористики и композиторского творчества».**

**III глава** диссертации – **«Пути использования народных песен в творчестве азербайджанских композиторов»** − состоит из двух разделов: **3.1. – «Использование народных песен в операх и музыкальных комедиях»; 3.2. – «Использование народных песен в вокальных и инструментальных произведениях».**

В **заключении** даются выводы и обобщения проведенного музыкального анализа.

**Sevda Maharram Mammadli**

## "The use of folk songs in the creativity of Azerbaijani composers"

## SUMMARY

The thesis is devoted to the problem of using folk songs in composer creativity. The aim of the thesis is to study Azerbaijani folk songs and ways of their implementation in the composer's work; The role of folk songs in the development of musical art. The scientific novelty of the thesis is that in the process of research, peculiar features of the processing of folk songs, the peculiarities of using folk songs in different genres of musical creativity - in musical-stage, vocal and instrumental works, related to the creative style of composers of the first half of the 20th century were analyzed and revealed.

The dissertation consists of introduction, 3 chapters, 2 sections, the conclusion and the bibliography.

**I chapter** of the dissertation – "**Notation and study of Azerbaijani folk songs in musicology**".

**II chapter** of the dissertation − **"The importance of the collection of U.Hajibeyli and M.Magomaev "Azerbaijani Turkic folk tunes" in the development of folklore and composer creativity".**

**III chapter** of the dissertation − **"Ways of using folk songs in the works of Azerbaijani composers"** − consists of two sections: **3.1. − "The use of folk songs in operas and musical comedies"; 3.2. − "The use of folk songs in vocal and instrumental works".**

In **conclusion** is given inference and generalisations of musical analysis.

Çapa imzalanıb: 25.03.2016.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ
имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

***На правах рукописи***

**СЕВДА МАГЕРРАМ гызы МАМЕДЛИ**

# ИСПОЛЬЗОВАНИЕ НАРОДНЫХ ПЕСЕН В ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ (I половина XX века)

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по искусствоведению**

**Баку – 2018**